AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №3, səh. 215-217 (2013)

İBRAHİM SƏFƏROV - 100

GÖRKƏMLİ ALİM VƏ SƏMİMİ İNSAN

Bu yaxınlarda Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor, respublikanın Əməkdar meşəçi alimi, əmək və müharibə veteranı, Şöhrət ordenli İ.S.Səfərovun 100 illiyi qeyd olundu. Həmişə tələbələrinin, həmkarlarının, onu tanıyanların qəlbində yaşayan İbrahim müəllimin yadda qalan dəyərli fikirləri, xatirələri var ki, onlardan bir neçəsini qələmə almağı özümə borc bildim.

Görkəmli dendroloq-alim İbrahim Səfər oğlu Səfərov 1913-cü il avqust ayının 28-də Azərbaycanın səfalı guşələrindən biri olan Şamaxı rayonunun Quşçu kəndində anadan olmuşdur.

1965-ci ildə akademik V.R.Volobuyevin təşəbbüsü və yaxından köməkliyi ilə Botanika İnstitutunda Biogeosenologiya laboratoriyası yaradıldı və İ.S.Səfərov onun rəhbəri təyin edildi. 1969-cu ildə mən aspiranturaya daxil olarkən, İ.S.Səfərov və V.C.Hacıyev məni məqsədli aspirantura kursunu keçmək üçün Moskvaya, V.N.Sukaçov adına Biogeosenologiya İnstitutuna göndərdilər. Laboratoriya müdiri, örkəmli alim professor N.V.Dılis elmi rəhbərim təyin edildi. Azərbaycanda biogeosenologiya üzrə mütəxəssislərə böyük ehtiyac var idi. Mən gənc bir kadr kimi hazırlanaraq 1972-ci ildə yenidən vətənimizə qayıtdım. Bu zaman artıq Biogeosenologiya laboratoriyası Meşəşünaslıq şöbəsi adı altında fəaliyyət göstərirdi.

1973-cü ildə ilk dəfə olaraq, institutun mövzu planına əsasən tozağacı (*Betula* L.) meşələrində kompleks şəkildə biogeosenoloji metodlarla elmi-tədqiqat işi aparmağa başladım. Təcrübə sahəsi Quba rayonunun Dərk kəndi ərazisində Babadağ tozağacı meşəsində idi. Həmin meşə sahəsinin yolu çox çətin və nəqliyyatın gedə bilmədiyi yerdə olduğuna görə ora yalnız atla getmək mümkün olurdu. Belə çətinliyin olmasına baxmayaraq, İbrahim müəllim mənim apardığım elmi-tədqiqat işini yoxlamaq üçün Dərk kəndinə gəldi. Təcrübə sahələrinə mütləq atla getmək lazım idik. 60 yaşlı alim çox cəsarətlə, heç bir çətinlikdən qorxmayaraq, at belində dəniz səviyyəsindən 1600 m hündürlükdə olan Babadağının tozağacı meşəsinə yollandı. Bütün təcrübə sahələrini gəzib yoxladıqdan sonra işimdən razı qaldığını bildirdi. Əlbəttə, bu yenicə elmi-tədqiat işinə başlayan gənc alim üçün böyük ümidverici nailiyyət idi. İbrahim müəllimlə 26 il bir yerdə işləməyimlə çox böyük



fəxr hissi keçirirəm. Mən onun yanında həyat məktəbi keçmişəm. Bu müddət ərzində ondan çox şeylər öyrənməklə yanaşı, yadımda qalan bir çox dəyərli anlar da olub. Bunlardan bir neçəsini açıqlamaq istəyirəm.

Şöbə böyük kollektivdən - 22 əməkdaşdan ibarət olub, beynəlmiləl xarakter daşıyırdı. Hətta "qonşu" respublikadan da şöbədə 2 nəfər işçi də çalışırdı. Ibrahim müəllimin rəhbərlik etdiyi şöbənin kollektivi çox səmimi və işgüzar insanlardan ibarət idi. O zaman kollektivdə S.Ə.Sadıxova, K.S.Əsədov, Q.Cəlilov, O.H.Mirzəyev, Ş.Q.Hüseynov, E.S.Səfərova, E.P.Səfərova, G.İ.Rzayeva və başqa əməkdaşlar fəaliyyət göstərirdilər. Ekspedisiya və ezamiyyətlərə gedərək elmi-tədqiqat işlərimizi rahat və yaxşı nəticələrlə yerinə yetirirdik. Bunun da əsas səbəbi İbrahim müəllimin tələbələri və yetirmələri demək olar ki, respublikamızın əksər bölgələrində Meşələrin Bərpası və Mühafizəsi Müəssisələrin rəhbərləri və əməkdaşları idilər. Onlar bizə çox böyük qayğı göstərirdilər.

İbrahim müəllimin ən yaxşı xüsusiyyətlərindən biri də o idi ki, kollektivdə həmişə səmimi və mehribançılığın bərqərar olmasına çalışırdı. Odur ki, şöbədə həmişə abu-hava təmiz və sağlam olurdu. Onun təşkilatçılığı ilə bütün bayram tədbirlərini keçirirdik. İbrahim müəllimin xanımlara böyük hörməti var idi və onlara xüsusi qayğı göstərirdi. 8 Mart Beynəlxalq Qadınlar bayramını

xüsusi ilə, hədiyyələrlə keçirilməsini xoşlayırdı. O da xatirəmdədir ki, Moskvada spirtli içkilərin istifadəsinə, xüsusən ictimai yerlərdə qadağa qoyulduğu bir vaxtda şöbədə Qadınlar bayramını qeyd edəndə İbrahim müəllim 1 ədəd Şampan şərabının alınmasını təklif etdi.

İbrahim müəllimə bir nüfuzlu şəxsiyyət kimi yanaşırdıq. Bu hörməti o, özü qazanmışdı. Institutumuzun bütün kollektivi ona yüksək səviyyədə hörmət edirdilər, ona böyük ehtiramla yanaşırdılar. Hətta institutun bütün tədbirlərində, o cümlədən elmi şurada onun həmişə oturduğu stulda hörmət əlaməti olaraq heç kim oturmazdı. Botanika İnstitutuna həmişə görkəmli alimlər rəhbərlik ediblər. Onlar hər zaman İbrahim müəllimin şəxsiyyətinə böyük hörmət əlaməti olaraq ya daxili telefonla xırda məsələlərə görə müraciət edər, yaxud ciddi problemli məsələ olanda onun kabinetinə gələrdilər. Mən İbrahim müəllimlə işlədiyim dövrdə bunların hamısının şahidi olmuşam.

İbrahim müəllim əməkdaşlara çox diqqətli idi. İbrahim müəllim səhhətinə görə öz istəyi ilə 1987-cu ildə şöbə rəhbərliyindən azad olunarkən, onun təklifi ilə məni onun yerinə təyin etdilər, o isə elmi məsləhətçi oldu. Bu zaman öz oturduğu kabineti İbrahim müəllim mənə təklif edəndə mən razılaşmadım və ona ömrünün axırına kimi öz kabinetində oturmağı və bizə elmi məsləhətlər verməyini xahiş etdim. Onunla bundan sonra 10 il bir yerdə işlədik.

İbrahim müəllim hər bir işçisinə qayğı ilə yanaşaraq köməklik göstərərdi. Botanika İnstitutunun əməkdaşı Rafiq Kamil oğlu Məlikov uzun müddət evsiz idi. Bakı Sovetinin deputatı olan İbrahim müəllimin xahişi və köməkliyi ilə ona ev verirdi. Mənim üçün də İbrahim müəllim qayğısını əsirgəməyib. Məlum olduğu kimi, keçmiş SSPİ məkanında tədris saatları mərkəzdən-Moskvadan verilirdi. Bizdən başqa əksər respublikaların universitetlərində gənc elm sahəsi olan Biogeosenologiya fənni tədris olunurdu. Mənim Moskvada olan elmi rəhbərim professor N.V.Dılis birinci dəfə olaraq 1977-ci ildə Bakıya gəlmişdi. O, professor İ.S.Səfərovla şöbədə görüşərkən bir çox məsələlərlə yanaşı, həm də Biogeosenologiya fənninin tədrisi ilə maraqlandı. Bu fənn tədris olunmadığı üçün, N.V.Dılis və İ.S.Səfərov Bakı Dövlət Universitetinin rektoru F.Bağırzadə ilə görüşdülər. Rektor F.Bağırzadə Biogeosenologiya fənninə saat ayırmağı vəd etdi və mənim bir gənc alim kimi həmin fənni tədris etməyə razılığını verdi. Ancaq təssüf ki, bu vədə əməl olunmadı.

İbrahim müəllim səmimiliyi, qayğıkeşliyi ilə yanaşı, elmi işlərin aparılmasında çox ciddi və məsuliyyətli alim idi. Meşələrimizin mühafizəsi və onların sahələrinin artırılması üçün həmişə dəyərli tövsiyələrini verirdi. Təsadüfi deyil ki, Xaçmaz rayonundan 2-ci, 3-cü xətlə Şollar suyunun Bakı şəhərinə çəkilməsi zamanı meşələrə toxunulmamasını tövsiyə edirdi. Meşə sahələrinin artırılması və zənginləşdirilməsi üçün uzun müddətli ətraflı tədqiqat işlərini aparan İbrahim müəllim meşə salarkən bir çox ağac cinslərindən istifadə edilməsini təklif etmişdir. Lənkəran meşələrinin əsas tərkibini təşkil edən, yaxşı inkişafı olan şabalıdyarpaq palıdın (*Quercus castanufolia*) Yalama ərazisində əkilməsi layihəsini 1953-cü ildə məhz professor İbrahim Səfərov vermişdir. Hal-hazırda şabalıdyarpaq palıd Yalama meşələrinin əsasını təşkil edir. Dəmirağacının (*Parrotia persica*), o cümlədən Eldar şamının (*Pinus eldarica*) və s. ağac cinslərinin meşə əkinlərində, yaşıllıq və parkların salınmasında istifadə edilməsini təklif etmişdir.

Onu da qeyd etmək vacibdir ki, İbrahim müəllim istirahətə gedərkən elmi-tədqiqat və müşahidə işlərinə də diqqət edirdi. O, olduğu yerlərin ətrafındakı meşələri, parkları, salınmış yaşıllıqları mütləq gəzər və nəticədə öz təkliflərini verərdi. Təsadüfi deyil ki, Nalçik və Yessentuki sanatoriyasında istirahər edərkən oranın rəhbər işçiləri ilə görüşərək, eldar şamından meşə əkinlərində, yaşıllıqların və parkların salınmasında istifadə edilməsini tövsiyyə edən məhz İbrahim müəllim olmuşdur. Bir neçə ildən sonra həmin şəhərlərə gedərkən eldar şamının yaxşı inkişaf etməsini müşahidə etmişdir. Ümumiyyətlə, İbrahim müəllim hər hansı ölkələrdə olarkən oranın təbiəti, bitki aləmi və xüsusən də meşələri ilə maraqlanmış, lazımı məsləhət və tövsiyələrini vermişdir.

Ümumdünya əhəmiyyətli məşhur Kislovodski şəhərinin ətrafında olan Kurort meşələri və qozmeyvəlilər plantasiyası bilavasitə 1951-ci ildən başlayaraq professor İ.Səfərovun təşəbbüsü ilə salınmışdır və bununla bağlı 2 nəfər elmlər namizədi hazırlanmışdır.

Professor İbrahim Səfərovun gərgin əməyinin və elmi axtarışlarının nəticələri 200-dən çox elmi məqalə, o cümlədən 11 monoqrafiyada öz əksini tapmışdır . Onun təklifi əsasında Bolqarıstan, Ruminiya, Əlcazair və başqa ölkələrdə Eldar şamı meşəsi salınaraq sınaqdan çıxarılmış və Bolqarıstanın cənubunda Sandanski rayonunda eldar şamının meşə massivi yaradılmışdır.

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü olan İ.Səfərov yüksək ixtisaslı elmi kadrların hazırlanmasına xüsusi diqqət vermiş, onun rəhbərliyi altında 2 elmlər doktoru və 40-a yaxın elmlər namizədi hazırlanmışdır.

Professor İ.Səfərov 20 ildən çox Bakı Şəhəri Sovetinin yaşıllaşdırma və ekologiya komissiyasının sədri vəzifəsində çalışmış və həmin illərdə Bakı Sovetinin deputatı olmuşdur. Elmin

inkişafında göstərdiyi yüksək xidmətlərinə görə Azərbaycan prezidenti Heydər Əliyev onu ölkənin ən yüksək mükafatlarından olan Şöhrət ordeni ilə təltif etmişdir.

İbrahim müəllimin ürəyində həyata keçiriləsi çoxlu qlobal planları var idi. Lakin nə etmək olar... Ölüm imkan vermədi. Görkəmli alim İbrahim Səfərov 1998-ci il noyabr ayının 21-də dünyasını dəyişdi. Lakin İbrahim müəllimin xatirəsi onu tanıyanların və tələbələrinin qəlbində həmişə yaşayacaqdır. Allah rəhmət eləsin.

Oqtay Mirzəyev
AMEA Botanika İnstitutunun
Geobotanika şöbəsinin
aparıcı elmi işçisi, b.ü.f.d.